## Azərbaycan Milli Mətbuatı - 150

**Azərbaycan mətbuatının 150 illik tarixini araşdırmaq bu tarixin ayrı-ayrı mərhələləri haqqında danışmaq, həm də bu tarixdə ulduz kimi parlayan qüdrətli qələm sahiblərinin yaradıcılıq yolunu izləmək, onların həyat salnaməsini vərəqləmək deməkdir. Sözün həqiqi mənasında millətin tərəqqisi naminə qələm çalmış bu böyük söz adamlarının mətbu fəaliyyətini araşdırmaqla biz tarixin konkret bir dövrünün gərdişini, ictimai-siyasi mənzərəsini, o dövrün ağrı-acılarını özündə əks etdirən gerçəkləri ortaya qoya bilirik. Zəngin mətbuat tariximizdə özünəməxsus yer tutan belə qələm ustalarından biri də şübhəsiz ki, dahi Üzeyir bəy Hacıbəylidir.**



# Üzeyir bəy Hacıbəylinin mətbu irsi

Çoxşaxəli mətbu fəaliyyəti və zəngin publisistik irsi Üzeyir bəy Hacıbəylini ictimai düşüncə tariximizdə təkcə Azərbaycan peşəkar musiqisinin banisi, qüdrətli bəstəkar və böyük maarifçi kimi deyil, həm də bənzərsiz yazı üslubu olan jurnalist-publisist kimi qiymətləndirməyə əsas verir. Üzeyir bəy Qori Müəllimlər Seminariyasını bitirmiş, bir müddət Qarabağda - Hadrutda müəllimlik etmişdi. Sonra Bakıya gəlib qaynar neft şəhərində müəllimliklə yanaşı, müxtəlif qəzetlərdə müxbir kimi çalışmış, eyni zamanda bəstəkarlıq, dramaturqluq etmiş, operalar yazmış, bir çox qəzetin redaktoru olmuş, tarixə mədəniyyət, elm, təhsil təşkilatçısı və görkəmli ictimai-siyasi xadim kimi düşmüşdür. Lakin sovet dönəmində onu daha çox bəstəkar kimi təbliğ etmişlər, publisistik fəaliyyəti bir növ kölgədə qalmışdır. Halbuki onun XX əsrin əvvəllərindən başlayaraq 1920-ci ilə kimi davam edən qaynar mətbu fəaliyyəti Azərbaycan ictimai fikrinin və milli özünüdərkinin formalaşmasında mühüm rol oynamışdır.

1904-cü ildə "Kaspi" qəzetində jurnalistlik fəaliyyətinə başlayan Üzeyir bəy Hacıbəyli 1905-ci ildə öz ətrafına demokratik milli ruhlu ziyalıları toplayan "Həyat" qəzetində çap olunmuş "Bir xanım əfəndinin bizlərə hüsni-təvəccöhi" (10 sentyabr, 1905, N62) sərlövhəli məqaləsi ilə məşhurlaşır. Bu yazı "Peterburqskie vedomosti" qəzetinin 210-cu sayında alman mənşəli mühərrir Maqda Neymanın "qoca administratorun" dilindən Qafqaz müsəlmanlarını vəhşi kimi qələmə verərək onların haqqında yağdırdığı böhtan, yalan və iftiralara kəskin cavab idi. Təkcə üsyankar ruhu ilə deyil, həm də tutarlı tarixi faktlara və məntiqə əsaslanan bu yazı 20 yaşlı bir gəncin milli mətbuatımızda yeni bir cığır açmasından xəbər verirdi.

Üzeyir bəy Hacıbəyli toplumun azadlığı, millətin savadlanması, cəhalət və zülmdən qurtulması, öz haqqını tanıması, məmləkətin xoşbəxtliyi naminə fədakarlıqla qələm çalırdı. Bu baxımdan onun "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal", "Doğru söz", "İttihad", "Tərcüman", "Təkamül", "Açıq söz", "Azərbaycan" qəzetlərində və "Molla Nəsrəddin" jurnalındakı publisistik fəaliyyəti olduqca məhsuldar və əhəmiyyətlidir. Üzeyir bəy bu mətbuat orqanlarında "Ordan-burdan", "O yan-bu yan", "O yandan-bu yandan", "Dərədən-təpədən", "Zurna" və s. başlıqlar altında "Ü", "Üzeyir", "Bir kəs", "Filankəs", "Behmankəs", "Bisavad", "Avara", "Çi" və s. kimi altmışdan çox gizli imza ilə qiymətli yazılar dərc etdirmişdir. Dövrün, zamanın nəbzi döyünən bu yazıların hər birində cəmiyyəti dəyişməyə, tərəqqi etməyə həyəcanlı bir çağırış vardır. Ona görə də bu fikri söyləməyə tam əsas vardır ki, Üzeyir bəyin mətbuat səhifələrində dərc olunmuş 2 mindən çox publisistik yazısı millətin tərəqqi və təkamülündə böyük rol oynamışdır. Bu yazıların ictimai məzmunu, fəlsəfi-publisistik qayəsi zülmətdə işıq axtarışı, mövzu rəngarəngliyi, günlə-dövrlə bağlılığı, toxunduğu problemlərlə çağdaş dövrümüzün gerçəklikləri arasındakı paralellik, janr və fərqli üslub palitrası baxımından çox cazibədardır. Yəni bu irslə müasir dövrümüz arasında maraqlı tarixi paralellər axtarmaqla müasir cəmiyyəti də düşündürən bir çox suala cavab tapmaq mümkündür.

Publisistik yaradıcılığının ana xətti millətə xidmət, millətçilik və istiqlalçılıq olan Üzeyir bəy Hacıbəyli ölməz yazıları ilə sanki bu günümüzə də güzgü tutur. Kəskin yazı üslubu ilə seçilən Ü.Hacıbəyli kütləvi savadsızlığı, dini fanatizmi, çar hökumətinin milli əsarət siyasətini, qadın hüquqsuzluğunu xüsusi məharət və cəsarətlə tənqid etmişdir. Böyük publisist millətin varlığının əsas göstəricisi olan ana dili məsələsini ön plana çəkməklə məktəblərdə ana dilinin tədrisi ilə bağlı özünü göstərən ciddi problemlərin milli tərəqqi yolunda yaratdığı mənfi təsirləri də qabartmağa çalışmışdır.

Üzeyir bəy Hacıbəyli publisistik yazılarında əsas diqqəti soydaşlarını qəflətdən ayıltmağa, cəhalət dumanının çəkilməsinə, cəmiyyətin maariflənməsinə, elmin və təhsilin yayılmasına yönəldirdi. Onun yazılarında Avropa ilə müqayisələr aparılır, mədəni tərəqqiyə mane olan adət-ənənələr kəskin tənqid edilirdi. Üzeyir bəy xüsusən "Həyat", "İrşad", "Tərəqqi" kimi qəzetlərdəki yazılarında toplumu daim gələcək haqqında düşünməyə, elm və təhsilə yiyələnməyə, dəyişməyə çağırırdı. Yazılarının təsirinin artması üçün o, ən müxtəlif formalardan, o cümlədən satira və yumorun imkanlarından məharətlə istifadə edirdi. Bu mənada Üzeyir bəy qüdrətli publisist kimi tənqidi üslubun ən parlaq təmsilçilərindən idi. Onun bir çox halda kinayəli publisistik dili mövzunun açılmasına və haqqında danışılan problemin təsirli bir şəkildə çatdırılmasına imkan verirdi. Cəmiyyətin eybəcərliklərini, məmur özbaşınalığını, cahilliyi və riyakarlığı ustalıqla ifşa edən müəllifin yazıları üslubuna görə dərhal oxunur və cəmiyyətdə geniş əks-səda doğururdu. Bu populyarlığın əsas səbəblərindn biri Üzeyir bəyin satirik üslubu ilə yanaşı, yazılarındakı bədii elementlərin cazibəsi idi. Məsələn, "O olmasın, bu olsun" komediyası və "Molla Nəsrəddin" ruhunda yazdığı məqalələr tənqidi gücünə görə Ü.Hacıbəyli publisistikasını ədəbiyyatla sıx birləşdirir. Bu məqam Üzeyir bəyin fenomenal istedad sahibi olmasının daha bir təsdiqidir.

"İrşad" qəzetindəki fəaliyyətini Üzeyir bəy Hacıbəyli yaradıcılığının intibah dövrü kimi qiymətləndirmək olar. Fəaliyyət göstərdiyi dövr ərzində qəzet iki dəfə bağlanmışdır ki, bunun da əsas səbəbi Üzeyir bəyin çarizmin siyasətini tənqid edən felyetonları olmuşdur. Ədibin bu qəzetdə çarizmin, çar məmurlarının ifşasına, Şərq xalqlarının milli-azadlıq uğrunda mübarizəsinə, Qafqaz türklərinə qarşı kütləvi qırğınlara, məktəb və təlim üsullarına, ana dilinə olan münasibətə, əxlaq və tərbiyə problemlərinə, duma, seçki məsələlərinə, tarixən Azərbaycan üçün bəlaya çevrilmiş Qarabağ probleminə, erməni-müsəlman münaqişəsinə həsr olunmuş 300-dən artıq yazısı çap edilmişdir. Bu yazılar Azərbaycan xalqının ictimai-siyasi düşüncəsinin, milli ideologiyanın formalaşmasında mühüm rol oynamışdır.

❖ ❖ ❖

Cümhuriyyət dövründəki mətbu fəaliyyəti ilə Ü.Hacıbəyli Azərbaycan milli-siyasi şüurun formalaşmasında, istiqlal düşüncəsinin möhkəmlənməsində ciddi rol oynamışdır. Bu mənada "Azərbaycan" qəzetindəki (1918-1920) redaktorluq və jurnalistlik fəaliyyəti onun publisistik yaradıcılığının və mətbu fəaliyyətinin xüsusi mərhələsidir. Tariximizin müstəqil Cümhuriyyət kimi şərəfli bir dövründə Ü.Hacıbəyli gündəlik ictimai-siyasi, ədəbi, iqtisadi türk qəzeti olan "Azərbaycan"da bir müddət parlament müxbiri, 1919-cu il 89-cu sayından 4 iyul tarixli 216-cı saya qədər müvəqqəti redaktor, qəzetin 265-ci sayından 358-ci saya (1 sentyabr - 31 dekabr 1919) və 1920-ci ilin 28 aprelinə bolşevik işğalına qədər qəzetin redaktoru kimi çalışmışdır. Üzeyir bəy bu qəzetdə dövlət ideologiyasının formalaşmasında aparıcı publisist kimi çıxış etmişdir. Bu dövr onun vətənpərvərlik mövqeyinin və milli düşüncə liderliyinin zirvəsidir.

Azərbaycan parlamentinin açılması münasibətilə Üzeyir bəyin yazdığı "Təəssürat" və "Tarixi günümüz" (6-7 dekabr 1918) adlı məqaləri Azərbaycan dövlətçiliyinin tarixi baxımından ciddi əhəmiyyət kəsb edir. 100-150 il əvvəl müxtəlif xanlıqlardan ibarət olan Azərbaycan torpağının rus əsarətindən xilas olub təkmil bir hökumət şəklinə girməsini alqışlayan böyük publisist yazır: "...bu torpaq üzərində qurulmuş olan saxta və əməli hüdudları silinib-süpürülüb müttəhid və vəsi bir ərazi şəklinə girdi və bu gün xilas olub da iki milyon mütəcaviz nüfusilə Azərbaycan Cümhuriyyəti namini daşımağa kəsbi-ləyaqət etdi... Azərbaycan Cümhuriyyətinin Milli Parlamanı, Milli Məclisi açılmaqla təşkilat və tərtibati-siyasiyəsi artıq itmamə yetir".

Ü.Hacıbəyli uzun illərin əsarətindən xilas olan bir xalqı izləyən daxili və xarici təhlükələri görür, məqalələrində Azərbaycan istiqlalına qarşı hazırlanan sui-qəsdlərə və təxribatlara xalqı ayıq, "dördgöz" olmağa çağırır. O, "Dördgöz olmalıyıq" (25 aprel 1919) məqaləsində yazır: "İçimizdə olan düşmənlərin təhlükəsi xaricdə görünən düşmənlərinkindən daha zərərlidir. Xaricdə duranı görürük, lakin içimizdəkiləri hər dəfə görmək mümkün olmuyor. Bunlar əlaltı işlər görürlər və bizə qarşı qəflətən hücumlar və şəbxunlar hazırlıyorlar...keçmiş işlərdə ləkəli olanları və söz və əməllərilə şübhəli görünənləri məmləkətimiz daxilinə buraxmamalıdır, səhvən buraxılmışlar varsa, ərd və ixrac etməlidir...

Xülasə, istiqlalımızı müdafiə və mühafizə yolunda dördgöz olub da xarici düşmənlərimizi dəf üçün hər bir tədbirə bilatərəddüd təvəssül etməlidir".

Müəllifin "Bir yaş" ("Azərbaycan" 28 may 1919) məqaləsində isə minlərlə xanimanı xaraba qoyulan bir dövlətin - çaylarca axıdılan qanlar hesabına qurduğu Azərbaycan dövlətinin bir yaşının tamam olması və ikinci yaşa qədəm qoyması gününü istiqlal sevgisi ilə qələmə alır: "Bu gün istiqlalını elan etmiş olduğumuz və istiqlalı qazanmaq yolunda Növzad dövlətmizin təvəllüdü, ana bətnindən doğulması - çətinliklə əmələ gəldi. Ana vətən balasını doğarkən özünü qurban edəcək dərəcəsinə gəlmişdi... Azərbaycan torpağı bir xarabazara, bir viranəyə dönəcək idi. Onun, o madəri-mehribanın nazik sinəsi, zərif bədəni üzərində gəzən qaba ayaqlar, həm anası bətnindən balasını çəkmələrinin təpikləri altında tapdalamaq, əzmək və xurd-xaş etməklə anasını da, balasını da öldürmək istiyordular.

Bu Ana Vətənin vücudunda gizlənmiş olan eşq o dərəcədə qüvvətə və güclü ruha qadir idi ki, düşmən zülmü qarşısında tab və taqətdən düşməyib yaşamaq və yaşatmaq iqtidarını itirmədi: "Ana Vətən doğdu... Və bu gün doğduğu övladının səneyi-dövriyyəsi münasibəti ilə bayram qurub və övladını mavi, al və yaşıl rəngli parçalarla bəzəyib nümayişkaranə bir surətdə bəyani-iftixar etməkdədir".

Bu yazıda Üzeyir bəy ingilislərin Bakıya ilk gəlişi ilə onlarda yaranan təəssüratla sonrakı münasibətlərində fərqliliyi göstərməklə Qafqaz müsəlmanları haqqında yaradılan iftira və böhtanlara da münasibət bildirir: "İngilislər bizim içərimizə girərkən, özlərini vəhşi heyvan qarşısına çıxmış bir ovçu vəziyyətində saxlamaq ehtiyatına heç bir lüzum olmadığını bir-iki gündən sonra kəmali-təəccüb ilə anladılar... bilməməzlik və ya düşmənlər təbliği nəticəsi olaraq xəta və yanlış olduğunu dərk etdilər".

Üzeyir bəy zülm və əsarətdən xilas olmuş bir millətin bu gün azadlığa qovuşduqdan sonra öz mədəniyyətləri ilə digər millətləri heyran qoyacaqlarını qürur hissi ilə bildirir: "Al rəngi türklügə, yaşıl rəngi islamlığa və mavi rəngi də mədəniyyətə işarə olan bayrağımızın mənayi-mənəviyyəsi də budur".

Ü.Hacıbəylinin AXC dövrü yazılarında dövrünün ən mühüm problemlərinin, o cümlədən suveren dövlət və müstəqillik, demokratiya, milli maarifçilik, azad söz və mətbuat, vicdan azadlığı, erməni məsələsi, Qarabağ problemi kimi məsələlərin diqqət mərkəzində saxlanılması, bu problemlərin çözülməsi ilə bağlı özündə dərin siyasi mahiyyət daşıyan nəzəri fikirləri də maraq doğurur.

Ədibin `"Nə istiyorlar" (7 may 1919), "Siyasi imtahan" (11 may 1919), "Xatimə" (15 may 1919), "İçimizdəki denikinlər" (10 iyun 1919), "Qarabağ hadisatı" (24 iyun 1919), "Səddi-İsgəndər" (26 iyun 1919) və eləcə də tarixi həqiqətləri özündə əks etdirən digər məqalələri bu gün Azərbaycan haqqında yazılan böhtan və iftiralara, tarixi təhriflərə qarşı Azərbaycan ziyalılarının istinad etdikləti tutarlı cavablardır.

Üzeyir bəy "Azərbaycan" qəzetində onu düşündürən əsas problemlərdən biri olan Qarabağ məsələsinə də toxunur, ermənilərin Azərbaycana qarşı təcavüzünün kökünün dərinliyini açıb göstərirdi. O, qəzetdə Qarabağ məsələsini ermənilərin torpaq iddiası ilə bərabər, Azərbaycan hökumətinə itaətsizliyi kimi də qoyurdu. "Eyni müamilə gözləyirik" (5 may 1919, N172) məqaləsində Azərbaycan hökumətinin mövqeyini əks etdirərək Qarabağ ermənilərinin hökumətə tabe olmamaq qəsdilə göstərməkdə olduqları inadın artıq həyasızlıq dərəcəsinə çatdığını qeyd edir.

Məqalədə ingilis baş komandanı Bakı nümayəndəsi Şatelvortun Şuşa şəhərinə getməsi və Qarabağda yalnız Azərbaycan hökumətinin qanunlarının hökm sürəcəyi ilə bağlı erməniləri itaətə dəvət etməsi, buna baxmayaraq ermənilərin öz "müttəfiqlərinə" arxayın olub müqavimət göstərmələrini qeyd etməklə onların daim Qərbin köləsi, əllərində alət olması faktını vurğulayır: "Yevropaya ümidvardırlar", ümidvar olmaqlarının əsasi-dəxi budur ki, müharibə əsasında müttəfiqlərə "kömək durub" düşmən qabağında "döş gərib qılınc vurubdurlar", bunun əvəzində müttəfiqlərdən "ənam" gözlüyorlar!"

İngilislərin timsalında havadarları açıq-aydın ittiham edən Üzeyir bəy göstərir ki, Azərbaycan hökuməti qəti addım atmalı, öz vəzifəsi müqabilində hər kəs ki, Qarabağda Azərbaycan hökumətinə qulaq asmadı, asi və xain hesab edilib layiqli cəzalara çatmalıdır.

"Fitnələr qarşısında" məqaləsində isə Ü.Hacıbəyli hökumətin və müttəfiqlər ordusu komandanı general Tomsonun tədbirlərindən sonra Andranikin quldurluğunun sona çatdığını göstərsə də, ermənilərin növbəti taktikaya keçmələrini, hökumətimizin top və tüfəng ağzından çıxan güllələrdən sonra daşnakların "Vperyod" qəzetinin iftira və böhtanlarına məruz qalmasını qeyd edir: "...top və tüfəng güllələrini dəf etmək bunların iftira və böhtanlarını rədd etmək işindən çox asandır. Çünki ermənilər cəngavərlikdən artıq böhtan və iftira qurmaq ustalığı ilə məşhurdurlar". Üzeyir bəy bir vətənpərvər ziyalı kimi xalqını "donos"lar hücumuna və "niş"inə qarşı hazır olmağa çağırır, gənc hökumətimizi "əqrəb"lərdən qorumağı hər kəsin borcu hesab edirdi.

Bütövlükdə Üzeyir bəyin redaktorluğu dövründə "Azərbaycan" qəzetində dərc olunan yazılar bu mövzuları əhatə edirdi: milli istiqlal ideyalarının müdafiəsi, Azərbaycanın müstəqilliyinin qorunmasının vacibliyi, milli birliyin əhəmiyyəti, milli ideologiya ilə demokratik düşüncənin sintezi, təhsil və maarif məsələləri, bu məsələlərdə Avropa təhsili ilə müqayisələr, yeni məktəblərin açılmasının təşviqi, xalqın savadlanmasına davamlı çağırışlar. Bundan başqa müsəlman dünyasının gələcəyi, türk-müsəlman xalqları arasında həmrəylik, Qərb və Şərq mədəniyyətləri arasında körpü yaratmaq kimi mövzular da qəzet səhifələrində tez-tez işıqlandırılırdı. Əlbəttə, qəzetin əsas və aparıcı mövzularından biri Rusiya və sovet təhlükəsi haqqında xəbərdarlıqlar idi. Üzeyir bəy tezliklə bolşevik təhlükəsinin reallığını hiss edir və bu barədəki yazıları ilə parlamenti və hökuməti xəbərdar edirdi. Yuxarıda adını çəkdiyimiz "Dördgöz olmalıyıq" kimi yazılar məhz bu həyəcanlı xəbərdarlıqlar silsiləsindən idi.

Ü.Hacıbəylinin vətəninə, millətinə, bayrağına sonsuz sevgisinin təcəssümü olan "Bayrağımız sarsılmaz" (8 may 1919) məqaləsi zülm və əsarətin yoğun zəncirlərini qırıq-qırıq etməyə qadir olmuş bir millətin, gənc Azərbaycan dövlətinin haqq və azadlıq rəmzini özündə daşıyan üçrəngli bayrağımıza həsr olunmuşdur. Ədib sağ və sol düşmənlərimizin xain gözlərini qamaşdıran müqəddəs bayrağımızın üç rəngini göylərə qaldıran ağacın iti bir ox olub alçaq düşmənlərimizin qara qəlblərini deşməsilə namərd belini sındırıb alçaq başları əydirmək üzrə olduğunu mübariz bir ruhla qeyd edir: "O ağac sınmaz, o nur sönməz, o əl dönməz!! Çünki bayrağımız həqq bayrağıdır. O bir millətin hüquqi-bəşəriyyəsinin varisidir. Bir millət ki, onun da insan kimi yaşamaqa həqqi vardır! Bir millət ki, daha əsir olmaq istəmir!" Üzeyir bəy bu qisimdən olan yazılarını publisistikanın bədii elementləri ilə zənginləşdirir və oxucunu düşündürməklə yanaşı, onu emosional cəlb etməyi də bacarırdı.

Birbaşa publisist sənətkarlığına aid olan belə məqamlara görə görkəmli mətbuat tarixçisi, professor Şirməmməd Hüseynov ədibin zəngin publisistik irsini yüksək qiymətləndirərək qeyd edir ki, Üzeyir bəy Hacıbəyli o xoşbəxt sənətkarlardan və ictimai xadimlərdəndir ki, "zaman keçdikcə böyüklüyü, fəaliyyətinin mütərəqqi və humanist mənası daha parlaq şəkildə gözə dəyməkdədir. Onun zəngin irsi indi də diqqəti cəlb edir və mündəricə genişliyi, dərin mənası ilə bizi heyran edir". Məhz bu heyranlığın nəticəsi idi ki, Şirməmməd müəllim Üzeyir bəyin sovet dönəmində sərt senzuranın ideoloji təsiri ilə nəşrlərdə kənara qoyulmuş əsərlərini toplayıb oxuculara çatdırmağı özünə ali məqsəd bilmişdi. O, Üzeyir bəyin "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında çap olunmuş əsərlərini "Nəşrlərdə kənara qoyulmuş mətbu əsərləri (1904-1912)", 1915-1917-ci illəri əhatə edən "Yeni iqbal", "Sovqat", "Açıq söz", "Doğru söz", "İttihad" qəzetlərində dərc edilmiş əsərlərini isə "Nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri" adlı ikicildlik kitabında təqdim etmişdir. Bu cildlərə həmçinin Üzeyir bəyin "Kaspi"dən tərcümə edib "Həyat" qəzetində dərc etdirdiyi çox əhəmiyyətli bir neçə məqaləsi də daxil edilmişdir ki, həmin yazılar bu gün də aktuallıq baxımından dəyərini qoruyub saxlayır.

Azərbaycan mətbu tarixində xüsusi bir səhifə təşkil edən Ü.Hacıbəylinin publisistik irsinin tədqiq edilib öyrənilməsində və təbliğində Kənan Aslan, Mirabbas Aslanov, Tofiq Hacıyev, Abdulla Abbasov, Solmaz Tohidi, Səadət Qarabağlı, Aygün Əzimova və başqa araşdırmaçıların xidmətlərini də ayrıca qeyd etməliyik.

***Qulu MƏHƏRRƏMLİ,***
***filologiya elmləri doktoru,***
***professor***